“Rabitəbank” ASC

Rabitəbank Gaming League

Kibersport turnirində iştirak şərtləri və qaydaları

1. Ümumi müddəalar və anlayışlar

1.1. Bu Qaydalar Bankla fiziki şəxslər arasında qeydiyyatdan mükafatların ödənilməsinə və digər öhdəliklərin icrasına qədər Turnirdə iştirak münasibətlərini tənzimləyən, Mülki Məcəllənin oferta və aksept müddəaları üzrə ümumi ofertadır. Oyun, matç, xəritə seçimi, hakimlik və oyundaxili intizam İdman Reqlamenti ilə tənzimlənir.

1.2. Əsas anlayışlar:

1.2.1. Bank — təşkilatçı və brend sahibi “Rabitəbank” ASC; VÖEN 9900001061; Mərkəzi Bankın 136 saylı lisenziyası; hüquqi ünvan: Bakı, AZ 1014, Nəsimi rayonu, Füzuli küçəsi 71.

1.2.2. Operator — Bankla müqavilə əsasında Turnirin idman və texniki təşkilini həyata keçirən İnfokus Kreativ Agentliyi və Turan Master Gaming Club; hər ikisi Visa Inc. şirkətinin podratçısıdır.

1.2.3. Turnir — “Rabitabank Gaming League” Counter Strike 2 yarışı; Reqlament — Operatorun hazırladığı, Bankın razılaşdırdığı oyun və hakimlik sənədi; Baş hakim — Reqlament üzrə oyun və intizam qərarlarını verən şəxs.

1.2.4. Oyun Platforması — https://faceit.com/cybershoke.net ; Discord — komanda kommunikasiyası, matç otaqları, cədvəl və anti-çit ekran nümayişi üçün kanal; Rəsmi sayt — gamer.rabitabank.com. Rəsmi kanallar: Rəsmi sayt, Turnirin Discord serveri, Bankın rəsmi sosial media hesabları və e-poçtu, Operatorun təklif etdiyi digər kanallar.

1.2.5. Namizəd — qeydiyyata müraciət edən; İştirakçı — qeydiyyatı Operator və/və ya Bank tərəfindən təsdiqlənən fiziki şəxs; Komanda — birlikdə yarışan İştirakçılar; Kapitan — onların səlahiyyətli təmsilçisi; ehtiyat oyunçu — Reqlament üzrə əsas oyunçunu müvəqqəti əvəz edən İştirakçı.

1.2.6. Yetkinlik yaşına çatmayan — 18 yaşı tamam olmayan şəxs; Qanuni nümayəndə — onun valideyni, övladlığa götürəni, qəyyumu və ya himayəçisi.

1.2.7. Mükafat fondu — Bankın təsdiqlədiyi, Operatorun maliyyələşdirdiyi pul və/və ya əşya mükafatları; Kartmane Gamer kartı — Bankın eyniadlı ödəniş kartı; Məxfilik Siyasəti — fərdi məlumatların işlənməsini tənzimləyən sənəd. Fərdi məlumat və iş günü anlayışları Azərbaycan qanunvericiliyinə uyğun tətbiq edilir.

1.2.7. Rəsmi internet səhifəsi - https://www.rabitabank.com/kartmane-gamer-cup-2026/

1.3. Turnir bu Qaydalar, Məxfilik Siyasəti, Reqlament, Oyun Platformasının istifadə şərtləri, oyun naşirinin lisenziya və turnir şərtləri, Bankın rəsmi elanları və dəqiqləşdirmələri ilə tənzimlənir. Sənədlərin siyahısı Əlavə 1-dədir.

1.4. Ziddiyyət olduqda fərdi məlumatlar üzrə Məxfilik Siyasəti, oyun və hakimlik üzrə Reqlament, iştirak hüququ, mükafat, vergi, məsuliyyət və digər hüquqi məsələlər üzrə bu Qaydalar üstün tutulur. Rəsmi elanlar aid olduğu sənədin tərkib hissəsidir və dərc ediləndə qüvvəyə minir.

1.5. Azərbaycan dilindəki mətn əsasdır; tərcümələr məlumat xarakterlidir. Başlıqlar şərhə təsir etmir. Məzmundan başqa məna irəli gəlmədikdə tək və cəm anlayışları bir-birini əhatə edir.

2. Qaydaların qəbulu

2.1. Rəsmi saytda dərc olunan Qaydalar Bankın qeyri-müəyyən şəxslər dairəsinə ünvanladığı publik ofertadır, Bank tərəfindən müəyyən edilir və yalnız bütövlükdə qəbul olunur.

2.2. Namizəd qeydiyyat formasını doldurmalı, Qaydaları qəbul etdiyini və Məxfilik Siyasəti ilə tanış olub məlumatlarının işlənməsinə razılığını ayrı-ayrı xanalarda təsdiqləməli, formanı göndərməlidir. Xanalar əvvəlcədən işarələnmir; razılıqlar ayrıca və könüllü verilir.

2.3. Qəbul Bankla İştirakçı arasında müqavilə münasibəti yaradır. Elektron razılıq “Elektron imza və elektron sənəd haqqında” Qanuna uyğun olaraq yazılı forma ilə eyni hüquqi qüvvəyə malikdir.
2.4. Yetkinlik yaşına çatmayanın qeydiyyatı Qanuni nümayəndənin əvvəlcədən yazılı razılığı ilə mümkündür (Əlavə 2). Valideynlər nümayəndədirsə hər ikisinin razılığı alınır; yeganə və ya onları əvəz edən Qanuni nümayəndənin səlahiyyəti təsdiqləndikdə onun yazılı razılığı tətbiq edilir. Nümayəndə Qaydaları hər ikisinin adından qəbul edir və icraya görə birgə məsuliyyət daşıyır. Razılıq olmadıqda və ya həqiqiliyinə əsaslı şübhə yarandıqda Bank qeydiyyatı rədd edə və ya dayandıra bilər.
2.5. Nümayəndə razılığı istənilən vaxt geri götürə bilər; bu halda iştirak dayandırılır və Komanda üçün texniki nəticələr yarana bilər.
2.6. Qaydalar Turnir boyu pulsuz, məhdudiyyətsiz, yüklənə və çap edilə bilən formada saytda saxlanılır. Bank redaksiyaları versiya və qüvvəyə minmə tarixi ilə arxivləşdirir. Qəbul tarixində qüvvədə olan redaksiya tətbiq edilir; oyun və texniki dəyişikliklər Reqlamentin 1.6-cı bəndi üzrə Bankla razılaşdırılıb rəsmi dərc edildikdə göstərilən vaxtdan tətbiq olunur. Bu dəyişikliklər hüquqi, mükafat və məxfilik şərtlərini əvəz etmir.

3. Turnirin hüquqi təbiəti
3.1. Turnir bacarıq, təcrübə, reaksiya, taktika və komanda işinə əsaslanır; qaliblər püşk və təsadüfi seçimlə deyil, obyektiv oyun nəticələri ilə müəyyən edilir. “Lotereyalar haqqında” Qanun baxımından lotereya və ya stimullaşdırıcı lotereya deyil.
3.2. Turnir qumar və ya idman mərc oyunu deyil; nəticəyə görə mərc ödənişi tələb və qəbul edilmir. İştirak, giriş, qeydiyyat və abunə haqqı daxil olmaqla ödənişsizdir.
3.3. İştirak Kartmane Gamer kartının sifarişi və ya istifadəsi ilə şərtlənir; kart pulsuz təqdim edilir. Turnirin özü Bankın maliyyə xidməti deyil və ayrıca maliyyə və kredit öhdəliyi yaratmır. İştirak üçün kartın rəsmiləşdirilməsi, ona bağlı hesab və mükafatın həmin karta ödənilməsi Bankın kart şərtləri və bu Qaydaların 11.4-cü bəndi ilə tənzimlənir.
3.4. Pul mükafatları Vergi Məcəlləsinin 101.5-ci maddəsi üzrə yarış və müsabiqə uduşudur. Təsadüfi seçimli əlavə kampaniyalar ayrıca qaydalarla tənzimlənir və tələb olunduqda əvvəlcədən dövlət qeydiyyatından keçirilir.

4. Tərəflərin vəzifələri
4.1. Bank Turnirin təşkilatçısı kimi konsepsiyanın müəyyən edilməsində iştirak edir, onu və Qaydaları təsdiqləyir, mükafat fondunu formalaşdırır və təsdiqləyir, mükafatların rəsmiləşdirilməsi və qanuni ödənilməsinə, topladığı fərdi məlumatların qanuni işlənməsinə cavabdehdir. 5 000 AZN mükafat fondunun maliyyələşdirilməsi Operatorun öhdəliyidir.
4.2. Operator konsepsiyanı və cədvəli hazırlayır, matçları, hakimliyi, intizamı, anti-çit nəzarətini və etirazlara baxılmasını təşkil edir; nəticələri təsdiqləyib rəsmi protokolla Banka təqdim edir. Marketinq, kommunikasiya, məkanın icarəsi və ödənişləri, digər təşkilati işlər, fonda uyğun hədiyyələrin alınması və təqdimatı da Operatorun vəzifəsidir.
4.3. Oyun və nəticələr barədə qərarı Reqlament üzrə Baş hakim verir; Bank idman qərarlarına müdaxilə etmir. Bank Operatorun hərəkətlərinə görə yalnız qanunvericiliyin müəyyən etdiyi həddə məsuliyyət daşıyır.
4.4. Oyun Platforması, naşir, yayım platformaları və internet provayderləri müstəqildir; xidmətlərinə öz şərtləri tətbiq edilir. Naşir Turnirə sponsorluq etmir, onu təsdiqləmir, idarə etmir və Turnir ona aid deyil. Oyun nişanları və əqli mülkiyyət müvafiq hüquq sahiblərinindir.
4.5. Beynəlxalq ödəniş sistemlərinin ad və nişanları yalnız Bankla tərəfdaşlıq müqaviləsi və brend qaydaları çərçivəsində istifadə olunur.

5. Təqvim və format
5.1. Turnirin 2026-cı il təqvimi Bakı vaxtı ilə (UTC+04:00):
5.1.1. Qeydiyyat — 19 oktyabr–10 noyabr.
5.1.2. Onlayn kvalifikasiya — 11–21 noyabr.
5.1.3. Oflayn final — 22 noyabr, Elektra Events Hall, Dövlət Bayraq Meydanı, Bakı, Azərbaycan.
5.1.4. Postkampaniya — 23–27 noyabr.
5.2. Bank qeydiyyatı uzada və ya 64 Komanda həddinə çatdıqda erkən bağlaya bilər; məlumat rəsmi kanallarda dərc edilir. Həddən artıq müraciətlər Reqlamentdəki obyektiv meyarlar, o cümlədən müraciət ardıcıllığı və kvalifikasiya nəticələri ilə seçilir.
5.3. Turnirin formatı, mərhələlərin sayı, BO1 və BO3 matç sistemi, ilkin sıralama və keçid meyarları Reqlament və onun əsasında əvvəlcədən elan edilən rəsmi turnir sxemi ilə müəyyən edilir. Qeydiyyatdan sonra dərc edilən matç cədvəlini Kapitan izləyir.
5.4. Oflayn mərhələnin yeri, tarixi və əlavə şərtləri ən azı 24 saat əvvəl elan edilir. Gediş-gəliş və yerləşmə xərclərinin ödənilməsinə Operator cavabdehdir.

6. İştirak tələbləri
6.1. Minimum yaş qeydiyyat tarixində tamam olmuş 14 yaşdır. Naşirin PEGI/ESRB yaş tələbi daha yüksəkdirsə, həmin tələb tətbiq edilir. 18 yaşadək şəxslər yalnız Qanuni nümayəndənin yazılı razılığı ilə iştirak edir.
6.2. Yetkinlik yaşına çatmayanın mükafatı nümayəndənin iştirakı ilə rəsmiləşdirilib ödənilir; təsviri və şəxsi məlumatları ayrıca razılıq olmadan marketinqdə istifadə edilmir. Administrasiya ilə ünsiyyət rəsmi kanallarda, nümayəndənin məlumatlandırılması imkanı ilə aparılır; mümkün qədər gec saatlarda matç təyin edilmir.
6.3. Yalnız Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları iştirak edə bilər. Yaşayış yeri IP, sənədlər və zəruri əlavə yoxlamalarla müəyyən edilir. Yerləşməni gizlətmək üçün VPN, proksi və oxşar vasitələr diskvalifikasiyaya səbəb olur.
6.4. Bankın, törəmə cəmiyyətlərinin, Operatorun, hakim heyətinin və təşkilatda birbaşa iştirak edən podratçıların əməkdaşları iştirak edə bilməz. Məhdudiyyət istənilən mərhələdə aşkarlandıqda şəxs kənarlaşdırılır, nəticələri ləğv edilir və ödənmiş mükafat geri tələb olunur.
6.5. Bir şəxs yalnız bir dəfə, bir Komandada və öz oyun hesabı ilə qeydiyyatdan keçə bilər. Hesab paylaşmaq və bir neçə hesabla iştirak qadağandır. Təkrar telefon, elektron poçt və ya oyun identifikatoru ilə müraciətlər avtomatik rədd edilir.

7. Qeydiyyat
7.1. Müraciət yalnız https://www.rabitabank.com/kartmane-gamer-cup-2026/ ünvanındakı elektron forma ilə qəbul edilir. Kapitan Komandanı yaradır, üzvlər qeydiyyatdan keçir, razılıqlar verilir və forma göndərilir. Avtomatik bildiriş iştirak təsdiqi deyil, Bankın yoxlaması və yekun təsdiqindən sonra Operator İştirakçıya bildiriş göndərir.
7.2. Komandada maksimum 5 əsas və 3 ehtiyat oyunçu ola bilər. Məşqçinin statusu, səlahiyyətləri və mükafat hüququ Reqlament və Qaydalarla müəyyən edilir. Qeydiyyatdan sonra heyət yalnız Reqlamentə uyğun, Operatorun əvvəlcədən yazılı təsdiqi ilə dəyişdirilir.
7.3. Namizəddən ad, soyad, ata adı, doğum tarixi, Komanda adı, kart məhsulunun yoxlanması üçün FİN, telefon, elektron poçt, oyun ləqəbi; yetkinlik yaşına çatmayandan nümayəndə məlumatları və razılığı tələb olunur. Qalibdən bank rekvizitləri, vergi identifikasiyası və qanunla tələb olunan əlavə sənədlər istənilə bilər. Məqsədə uyğun olmayan və artıq məlumat toplanmır.
7.4. Kapitan üzvləri Qaydalar və Reqlamentlə tanış edir, məlumatların düzgünlüyünə, rəsmi bildirişlərin

çatdırılmasına, cədvələ riayətə, etiraz və müraciətlərə cavabdehdir. Üzvlərin məlumatlarını daxil etməzdən əvvəl onların yazılı razılığını almalıdır və buna şəxsən məsuldur. Kapitanın rəsmi kanallarla verdiyi bildirişlər bütün üzvlərə çatdırılmış sayılır.
7.5. Bank məlumatları yoxlaya, əlavə sənəd, izahat və videoidentifikasiya tələb edə bilər. Natamam, yanlış və saxta məlumat, iştirak tələblərinə uyğunsuzluq, razılığın olmaması, qadağan ad və loqotip, sənədlərin vaxtında verilməməsi və qanundakı digər əsaslarla qeydiyyat rədd edilə bilər.
7.6. Rədd barədə əsaslandırılmış bildiriş verilir; Namizəd onu aldıqdan sonra 24 saat ərzində çatışmazlıqları aradan qaldırıb təkrar müraciət edə bilər.
7.7. Komanda adı, loqotip və ləqəblərdə aşağıdakılar qadağandır:
7.7.1. Təhqir, alçaltma, nalayiq və qeyri-etik ifadələr, ictimai əxlaqa zidd məzmun, ayrı-seçkilik, düşmənçilik və nifrət, zorakılıq, terror və ekstremizm təbliğatı.
7.7.2. Narkotik, psixotrop maddə, alkoqol, tütün, qumar, mərc və bukmeyker reklamı; siyasi şüar və təşkilat simvolları.
7.7.3. Hüquq sahibinin yazılı razılığı olmadan üçüncü şəxsin əqli mülkiyyəti; Bankın rəqibləri, o cümlədən digər maliyyə təşkilatlarının brendləri və onlarla assosiasiya yaradan işarələr.
7.8. Bank uyğunsuz ad, loqotip və ləqəbi dəyişməyi tələb edə, tələb icra edilməzsə qeydiyyatı ləğv edə bilər. Eyni Komanda adına ilk müraciət edən üstünlük qazanır.

8. İştirakçının təminatları
8.1. İştirakçı, yetkinlik yaşına çatmayıbsa nümayəndəsi ilə birlikdə, qeydiyyatla Qaydaları, Reqlamenti və Məxfilik Siyasətini oxuduğunu, anladığını və qeyd-şərtsiz qəbul etdiyini; məlumatların düzgün və aktual, iştirak tələblərinin ödənmiş olduğunu təsdiqləyir.
8.2. İştirakçı hesabın özünə məxsus və üçüncü şəxsdən alınmamış olduğunu, maraqlar toqquşmasının olmadığını, iştirakın klub müqaviləsi daxil olmaqla başqa öhdəlikləri pozmadığını bəyan edir. Sağlamlıq əks-göstərişi barədə məlumatlı olmadığını, riskləri könüllü qəbul etdiyini və Bankla Operatorun göstərişlərinə əməl edəcəyini təsdiqləyir.
8.3. Bank bu təminatlara əsaslanır. Yanlış və natamam məlumatdan yaranan zərərə görə İştirakçı qanunla məsuliyyət daşıyır; Bank onu kənarlaşdıra və mükafatı geri tələb edə bilər.

9. Davranış və intizam
9.1. Ədalətli oyun, hörmət və idman etikası bütün mərhələlərdə, matçlararası dövrdə, rəsmi kanallarda, yayımlarda və Turnirlə bağlı sosial media fəaliyyətində məcburidir.
9.2. Aşağıdakılar qadağandır:
9.2.1. Çit, aim-bot, wallhack, qadağan makros, skript, tekstura və səs modifikatorları; baq və boşluqlardan qəsdən istifadə; hesab paylaşımı, smurfing və boostinq.
9.2.2. Nəticə manipulyasiyası, razılaşdırılmış matç, rüşvət, mərc və mərc üçün daxili məlumat ötürülməsi.
9.2.3. İştirakçı, hakim, təşkilatçı və tamaşaçıya təhqir, hədə-qorxu, təqib, ayrı-seçkilik; irqi, milli, dini, gender və digər əsaslarla nifrət təbliğatı; Turnirin, Bankın, sponsor və tərəfdaşların nüfuzuna qəsdən zərər.
9.2.4. Sistemlərə və Oyun Platformasına icazəsiz müdaxilə; rəsmi kanallarda məxfi məlumat və hakimlə yazışmaların icazəsiz yayılması; alkoqol, narkotik və psixotrop maddələrin təsiri altında oyun.
9.3. Yeni oyun səhvi istifadə edilməzdən əvvəl dərhal Operatora bildirilməlidir. Manipulyasiya təklifi dərhal Operatora və Banka yazılı bildirilməlidir; susmaq da pozuntudur. İştirakçı, Kapitan, məşqçi və onların birinci dərəcəli qohumları Turnir matçlarına birbaşa və dolayı mərc edə bilməz. Manipulyasiya cəhdi dərhal diskvalifikasiya yaradır.
9.4. Tədbirlər: şifahi/yazılı xəbərdarlıq, raund və ya matç üzrə texniki məğlubiyyət, xalların silinməsi, İştirakçı və ya Komandanın diskvalifikasiyası, mükafatdan məhrumetmə və geri tələb, Bankın gələcək tədbirlərinə müddətli məhdudiyyət, qanunda nəzərdə tutulan hallarda hüquq-mühafizə orqanlarına

müraciət. Pozuntular üzrə tədbirlər Əlavə 3-dədir.
9.5. Təcili hallar istisna olmaqla qərardan əvvəl yazılı izahat imkanı verilir. Nəticəyə etiraz Reqlamentdəki qaydada 10 dəqiqə ərzində və növbəti matçdan əvvəl, intizam qərarından ilkin şikayət isə həmin qərarın bildirilməsindən 10 dəqiqə ərzində verilir; təfərrüatlar Reqlamentin 1.17 və 4.4-cü bəndlərindədir.
Tədbir mütənasib olmalıdır; diskvalifikasiyanı Baş hakim, mükafatdan məhrumetməni Bank qərarlaşdırır.

10. Yayım və əqli mülkiyyət

10.1. Bank və Operator matçları istənilən platformada yayımlaya, yaza və arxivləşdirə bilər. İştirakçı rəsmi yayımlanan matçdan imtina edə bilməz; şəxsi yayım yalnız Operatorun icazəsi və şərtləri ilə mümkündür.

10.2. İştirakçı ləqəb, foto/video təsviri və səsinin Turnirin keçirilməsi, yayımı və nəticələrinin işıqlandırılması üçün istifadəsinə qeyri-eksklüziv hüquq verir. Ad və soyadın açıq dərcinə ayrıca yazılı razılıq alınır. Turniri əks etdirən materiallar üzrə hüquqa ayrıca son tarix müəyyən edilmir; fərdi məlumatların işlənməsi, media materiallarının saxlanması və razılığın geri götürülməsinin nəticələri Məxfilik Siyasətinə tabedir. İstifadə şərəf, ləyaqət və nüfuza zərər vurmamalıdır.

10.3. Ad və təsvirin Bankın reklam, marketinq və brend kommunikasiyasında istifadəsinə ayrıca açıq və könüllü razılıq qeydiyyatdakı ayrıca, əvvəlcədən işarələnməmiş xana və ya ayrıca sənədlə verilir. Qaydaların qəbulu bu razılığı avtomatik yaratmır; imtina iştiraka və mükafat hüququna təsir etmir. Razılıq istənilən vaxt səbəbsiz və pulsuz geri götürülə bilər; geri götürmə gələcəyə tətbiq edilir və razılığa əsaslanan yeni istifadə dərhal dayandırılır. Dərc olunmuş marketinq materiallarının götürülməsi üzrə texniki tədbirlər ən gec 3 iş günündə tamamlanır; qanunun təxirəsalınmaz dayandırma tələbi qüvvədədir. Uşağın təsviri üzrə Məxfilik Siyasətinin dərhal geri götürmə tələbi saxlanılır.

10.4. Yetkinlik yaşına çatmayanın marketinqdə iştirakı yalnız nümayəndənin ayrıca yazılı razılığı ilə mümkündür. Turnirdən sonra Bankın brend siması kimi fəaliyyət ayrıca müqavilə tələb edir.

10.5. “Kartmane”, “Kartmane Gamer”, “Rabitabank Gaming League” adları, loqotipləri, dizaynları və rəsmi materiallar Banka məxsusdur və qanunla qorunur. Bankın nişanlarından yalnız əvvəlcədən yazılı razılıqla, göstərilən həcmdə istifadə edilə bilər.

10.6. İştirakçı yaratdığı klip, şərh, loqotip və digər məzmunun Turnirlə bağlı istifadəsinə Banka və Operatora qeyri-eksklüziv lisenziya verir; müəlliflik hüququ özündə qalır. Üçüncü şəxslərin hüquqlarının pozulmamasına təminat verir və müvafiq iddialara görə məsuliyyət daşıyır.

11. Mükafatlar

11.1. Ümumi fond 5 000 AZN-dir, tam Operator tərəfindən maliyyələşir və İştirakçı ödənişlərindən formalaşmır. Komanda mükafatlarının vergidən əvvəlki bölgüsü Əlavə 4-dədir. Mükafat pul və/və ya əşya ola bilər; əşyanın dəyərini Operator müəyyən edib təhvil sənədində göstərir.

11.2. Qalib rəsmi nəticə ilə mükafatlı yer tutmalı, Qaydaları və Reqlamenti pozmamalı, şəxsiyyət sənədi və rekvizitlərini verməli, Bankın KYC yoxlamasından keçməli və qəbul aktını imzalamalıdır. Yetkinlik yaşına çatmayıbsa nümayəndəsi iştirak etməlidir.

11.3. Sənədlər rəsmi bildirişin göndərilməsindən 7 iş günü ərzində verilməlidir; gecikdikdə Operator ödənişdən imtina edə bilər. Ödəniş sənədlər təqdim edilib yoxlamalar tamamlandıqdan sonra 10 iş günü ərzində edilir.

11.4. Mükafat yalnız qalibin Azərbaycanda öz adına açılmış Kartmane Gamer kartına nağdsız köçürülür. Kapitanın Banka verdiyi və bütün üzvlərin təsdiqlədiyi bölgü cədvəlinə əsasən hər üzvə ayrıca ödənilir; cədvəl yoxdursa əsas heyət arasında bərabər bölünür. Digər bank komissiyalarını qalib ödəyir. Bankın razılığı olmadan mükafat başqasına güzəşt edilə, dəyişdirilə və ekvivalent əşya/xidmətlə əvəz oluna bilməz.

11.5. Bank çirkli pulların leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı qanunvericilik üzrə identifikasiya və verifikasiya aparır. Şəxsiyyət müəyyənləşmədikdə, sənədlərin həqiqiliyinə əsaslı şübhə, milli/beynəlxalq sanksiya siyahısında olma, qayda pozuntusu və digər qanuni əsas olduqda ödənişi dayandıra və ya rədd edə bilər. Qanunun məhdudlaşdırdığı hallar xaric, əsaslandırılmış bildiriş göndərilir.

11.6. Sonradan pozuntu aşkarlandıqda Bank mükafatı rəsmi bildirişlə geri tələb edə bilər. Tələb 7 təqvim günü ərzində icra olunmazsa Bank məhkəməyə müraciət edə bilər.

12. Vergilər

12.1. Mükafatlar Vergi Məcəlləsi ilə tənzimlənir. Pul mükafatından vergi 101.5 və 150.1.11-ci maddələrə uyğun Bank tərəfindən mənbədə tutulub büdcəyə ödənilir; 102.1.15-ci maddənin azadolmaları və əşya mükafatları üzrə qaydaları qanuni hədlərdə tətbiq edilir.

12.2. Elanlarda brutto məbləğ və verginin tutulacağı açıq göstərilir; qalibə qalıq ödənilir. Tələb edilərsə Bank vergi ödənişi barədə arayış verir.

12.3. Qeyri-rezidentin vergiləri Məcəllə və ikiqat vergitutma müqavilələri nəzərə alınaraq müəyyən edilir. Digər, o cümlədən vətəndaşlıq və rezidentlik ölkəsindəki vergi öhdəlikləri qalibə aiddir.

13. Fərdi məlumatlar

13.1. Məlumatların toplanması, işlənməsi, saxlanması, ötürülməsi və məhvi "Fərdi məlumatlar haqqında" Qanun və Qaydaların tərkib hissəsi olan, saytda dərc edilən Məxfilik Siyasəti ilə tənzimlənir.

13.2. Məlumatların mülkiyyətçisi Bankdır; Operator və cəlb olunan şəxslər Bankın tapşırığı və müqaviləsi ilə məlumat operatoru kimi fəaliyyət göstərir. İştirakçı Siyasət üzrə məlumat almaq, düzəliş, emalın dayandırılması və məhvini tələb etmək hüququna malikdir.

13.3. Bank sirri "Banklar haqqında" Qanunla qorunur; Turnirdə iştirak onun açıqlanmasına əsas deyil. Anti-çit məqsədli ekran nümayişi və videonəzarət barədə əvvəlcədən məlumat və yazılı razılıq alınır.

14. Məsuliyyət

14.1. Bank Turnirin fasiləsiz və səhvsiz keçirilməsinə zəmanət vermir, aşağıdakılara görə məsuliyyət daşımır:

14.1.1. İştirakçının internet, avadanlıq və proqram nasazlıqları; Platforma, server, naşir, Discord, yayım və sosial şəbəkə fasilələri; hesabın bloklanması və naşirin sanksiyaları.

14.1.2. Rəsmi kanalların izlənməməsindən itirilən imkanlar; yanlış rekvizitdən gecikmə və səhv köçürmə; İştirakçıların bir-birinə zərəri; kiberhücum, saxta sayt, fişinq və üçüncü şəxslərin digər qanunsuz hərəkətləri.

14.1.3. Əldə edilməyən gəlir, əldən çıxmış fayda, işgüzar nüfuza zərər və digər dolayı zərərlər.

14.2. Bankın ümumi məsuliyyəti İştirakçının qazanmalı olduğu mükafatla, mükafat yoxdursa 50 AZN ilə məhduddur. Məhdudiyyətlər Bankın qəsdi, kobud ehtiyatsızlığı, həyat və sağlamlığa zərər hallarına şamil edilmir.

14.3. Uzun fasiləsiz oyun sağlamlığa zərər verə bilər; müntəzəm fasilə tövsiyə olunur. İştirakçı sağlamlığına cavabdehdir və əks-göstəriş varsa iştirakdan çəkinməlidir. Reklamda həddindən artıq oyuna təşviq edilmir.

14.4. İştirakçı pozuntusu ilə Banka, Operatora və üçüncü şəxslərə vurduğu zərəri qanunla ödəyir; hərəkətlərinə görə Banka üçüncü şəxs iddiası verilərsə, Bankın əsaslandırılmış xərclərini qarşılayır.

15. Fors major

15.1. İcranı mümkünsüz edən fövqəladə, qarşısıalınmaz hallar tərəfləri məsuliyyətdən azad edir: təbii fəlakət, epidemiya/pandemiya, müharibə, terror, iğtişaş, dövlət qadağaları, ölkəmiqyaslı elektrik/internet kəsilməsi, Platforma və ya naşir xidmətlərinin dayanması.

15.2. Bank müddəti uzada, formatı dəyişə, mərhələləri təxirə sala və Turniri dayandıra bilər. Hal 3 gündən çox davam edərsə Turnirə xitam verə, keçirilmiş mərhələlərin nəticələri əsasında mükafat bölgüsünü ədalətli müəyyən edə bilər.

16. Şikayətlər və mübahisələr

16.1. Matç, nəticə, hakimlik və oyundaxili intizam etirazları Reqlamentdəki qayda və müddətdə Operatora verilir. Baş hakimin qərarı idman hissəsində yekundur.

16.2. Mükafat, vergi, məlumatların işlənməsi və Bankın digər hərəkətləri üzrə müraciətlər: 133@rabitabank.com, Çağrı Mərkəzi 133, yaxud Baş Ofis — Bakı, AZ 1014, Nəsimi rayonu, Füzuli küçəsi 71. Müraciətdə ad, əlaqə, Turnir ID-si, şikayətin mahiyyəti və tələb göstərilir. Bank qanuni müddətdə, lakin ən gec 3 iş gününə əsaslandırılmış cavab verir.
16.3. İştirakçı qanuni qaydada maliyyə xidmətləri üzrə maliyyə ombudsmanına, istehlakçı hüquqları və fərdi məlumatlar üzrə səlahiyyətli dövlət orqanlarına müraciət edə bilər. Danışıqlarla həll olunmayan mübahisələr Azərbaycan qanunvericiliyi üzrə məhkəmədə həll edilir; Qaydalara həmin qanunvericilik tətbiq olunur.

17. Yekun müddəalar
17.1. Qaydalar iştirak barədə tam razılaşmadır, əvvəlki şifahi və yazılı danışıqları əvəz edir və Rəsmi saytda dərc ediləndə qüvvəyə minir.
17.2. Bir müddəanın etibarsızlığı və ya icraedilməzliyi digərlərinə təsir etmir; o, qanuna uyğun, ilkin niyyətə ən
yaxın müddəa ilə əvəz edilir. Hüquqdan istifadə etməmək ondan imtina deyil.
17.3. İştirakçı hüquq və öhdəliklərini Bankın yazılı razılığı olmadan ötürə bilməz. Bank təşkilati hüquq və öhdəliklərini qrup şirkətinə və ya hüquqi varisinə ötürə bilər.
17.4. Qeydiyyat e-poçtuna və ya telefonuna göndərilən bildiriş çatdırılmış sayılır; əlaqə dəyişikliyi dərhal Banka bildirilməlidir.
17.5. Qaydalar Bankın digər sənədləri, o cümlədən ümumi xidmət şərtləri və kart tarifləri ilə birlikdə tətbiq edilir; bank məhsulları həmin sənədlərlə tənzimlənir. Bankın saytı: www.rabitabank.com; digər əlaqə və rekvizitlər 1.2.1 və 16.2-ci bəndlərdədir.

Əlavə 1
Turniri tənzimləyən sənədlər
1. İştirak Şərtləri və Qaydaları, Məxfilik Siyasəti — Bank hazırlayır, Rəsmi saytda dərc edilir.
2. İdman Reqlamenti və matç cədvəli — Operator hazırlayır, Rəsmi saytda və Discord-da dərc edilir.
3. Mükafat fondunun bölgüsü — Operator hazırlayır, Rəsmi saytda dərc edilir.
4. Rəsmi elan və dəqiqləşdirmələr — Bank/Operator hazırlayır, rəsmi kanallarda dərc edilir.

Əlavə 2

Qanuni nümayəndənin razılığı

1. Bu forma 14–17 yaşlı İştirakçılar üçündür. Valideynlər nümayəndə olduqda hər ikisinin məlumatları və razılığı verilir. Yeganə və ya valideynləri əvəz edən Qanuni nümayəndə öz məlumatlarını və səlahiyyətini təsdiq edən sənədi təqdim edir; tətbiq olunmayan ikinci valideyn xanaları doldurulmur.

1.1. Birinci valideynin/nümayəndənin adı, soyadı, ata adı: _____

1.2. Vəsiqənin seriya və nömrəsi: _____; qohumluq/nümayəndəlik: _____

1.3. Telefon: _____; elektron poçt: _____

1.4. İkinci valideynin adı, soyadı, ata adı: _____

1.5. Vəsiqənin seriya və nömrəsi: _____; qohumluq: _____

1.6. Telefon: _____; elektron poçt: _____

1.7. İştirakçının adı, soyadı, ata adı: _____

1.8. Doğum tarixi: _____; oyun ləqəbi: _____; Komanda: _____

2. İmzalayan Qanuni nümayəndə kimi “Rabitabank Gaming League” Qaydaları, Reqlamenti və Məxfilik Siyasəti ilə tanışlığımı, təmsil etdiyim şəxsin iştirakına və məlumatlarının Siyasətdəki məqsədlərlə işlənməsinə razılığımı təsdiqləyirəm. Ad, ləqəb və təsvirinin rəsmi yayım və Turnirin işıqlandırılmasında istifadəsinə razıyam. Mükafatın rəsmiləşdirilməsi və qəbulunda şəxsən iştirak edəcəyəm. Razılığı istənilən vaxt geri götürə biləcəyimi bilirəm.

3. Marketinq üçün ayrıca könüllü razılıq — uyğun variantı işarələyin:

3.1. □ Təmsil etdiyim şəxsin ad və təsvirinin Bankın reklam və marketinqində istifadəsinə razıyam.

3.2. □ Razı deyiləm.

3.3. Razılıq verməmək iştiraka və mükafat hüququna təsir etmir.

4. Tarix: _____; birinci Qanuni nümayəndənin imzası: _____; tələb olunduqda ikinci valideynin imzası: _____.

Əlavə 3

Pozuntular üzrə intizam tədbirləri

1. Matça 10 dəqiqəyədək gecikmə — kiçik: ilk dəfə xəbərdarlıq, təkrarda raundun texniki məğlubiyyəti.
2. Matça gəlməmək — orta: ilk dəfə matçın texniki məğlubiyyəti, təkrarda kənarlaşdırma.
3. Rəsmi kanalda hörmətsizlik — kiçik: ilk dəfə xəbərdarlıq, təkrarda matçın texniki məğlubiyyəti.
4. Təhqir, hədə-qorxu, təqib — ağır: ilk dəfə matçın texniki məğlubiyyəti, təkrarda diskvalifikasiya.
5. Ayrı-seçkilik, nifrət təbliğatı — ağır: ilk dəfə diskvalifikasiya, təkrarda həm də gələcək tədbirlərdən kənarlaşdırma.
6. Qadağan skript — ağır: ilk dəfə xəbərdarlıq və ya texniki məğlubiyyət, təkrarda diskvalifikasiya.
7. Çit, hesab paylaşımı/smurfing və Turnir matçlarına mərc — hər biri ən ağır: diskvalifikasiya və mükafatdan məhrumetmə.
8. Nəticə manipulyasiyası — ən ağır: diskvalifikasiya, mükafatdan məhrumetmə və hüquq-mühafizə orqanlarına müraciət.
9. Yanlış/saxta məlumat — ağır: ilk dəfə qeydiyyatın ləğvi, təkrarda diskvalifikasiya və mükafatın geri tələbi.
10. Brendə qəsdən zərər — ağır: ilk dəfə xəbərdarlıq, təkrarda diskvalifikasiya.
11. Siyahı istiqamətvericidir; Baş hakim və Bank konkret şəraitə görə daha yüngül və ya ağır, lakin mütənasib tədbir seçə bilər.

Əlavə 4

Mükafat fondunun bölgüsü

1. I yer — 2 500 AZN komanda mükafatı.
2. II yer — 1 500 AZN komanda mükafatı.
3. III yer — 1 000 AZN komanda mükafatı.
4. Cəmi — 5 000 AZN. Məbləğlər brutto göstərilib; vergi tutulduqdan sonra ödənilir.